## 2023-2024-cü tədris ili üçün məktəbəqədər təhsil müəssisələrinə müdir vəzifəsinə işə qəbulla bağlı ən çox verilən suallar və cavabları

**1. Məktəbəqədər təhsil müəssisələrinə müdir vəzifəsinə işə qəbul üzrə müsabiqədə kimlər iştirak edə bilərlər?**

- Müsabiqədə məktəbəqədər təhsil və ya pedaqoji sahə üzrə ali təhsili, məktəbəqədər təhsil müəssisəsində 3 ildən az olmayaraq pedaqoji stajı olan şəxslər iştirak edə bilərlər. Müsabiqəyə ilk növbədə dövlət məktəbəqədər təhsil müəssisələrində çalışan şəxslər buraxılacaqlar.

**2. Müdir vəzifəsinə işə qəbul üzrə müsabiqə hansı mərhələlərdən ibarətdir?**

- Müdir vəzifəsinə işə qəbul dörd mərhələdən (elektron ərizələrin qəbulu, test imtahanı, müsahibə və vakant yerlərə yerləşdirilmə) ibarət müsabiqə yolu ilə keçirilir.

**3. Müsabiqəyə elektron sənəd qəbulu nə zaman həyata keçiriləcək?**

- Müsabiqədə iştirak etmək istəyən namizədlər 31 iyul saat 11:00-dan 7 avqust saat 11:00-dək miq.edu.az/direktorlar linkinə daxil olaraq qeydiyyatdan keçə bilərlər.

**4. Namizəd haqqında məlumatların müsabiqənin şərtlərinə uyğunluğu necə müəyyənləşdirilir?**

- Namizəd haqqında məlumatların müsabiqənin şərtlərinə uyğunluğu nazirliyin müsabiqə komissiyası tərəfindən araşdırılır və tələblərə cavab verən namizədlərin elektron ərizələri təsdiq edilir.

**5. Test imtahanı mərhələsində namizədlərin bilikləri hansı bölmələr üzrə yoxlanılacaq?**

- Test imtahanı mərhələsində hər bir namizədə məktəbəqədər təhsil və idarəetmə, oxuyub anlama bacarığı, məntiq və məktəbəqədər təhsilin məzmunu istiqamətləri üzrə hər biri 15 sual olmaqla ümumi 60 sual təqdim edilir. Test imtahanı mərhələsində

göstərilən hər bir istiqamət üzrə minimum 5 bal olmaqla ümumi 30 bal və daha yüksək nəticə göstərən namizədlər müsahibə mərhələsinə buraxılırlar.

**6. Namizədlərin vakant yerlərə yerləşdirilməsi necə həyata keçirilir?**

- Müsahibə mərhələsinin nəticəsinə əsasən namizədlərin vakant yerlərə yerləşdirilməsi yerli təhsili idarəetmə orqanının rəyinə uyğun olaraq komissiya tərəfindən aparılacaq.

**7. Müsahibə mərhələsində namizədlərin bilikləri hansı bölmələr üzrə yoxlanılacaq?**

- Müsahibə mərhələsində namizədlər aşağıdakı meyarlar əsasında 5 ballıq şkala ilə qiymətləndirilirlər:

- ➢ ünsiyyət və təqdimetmə bacarığı;
- ➢ liderlik və idarəetmə bacarığı;
- ➢ məktəbəqədər təhsil sahəsində pedaqoji və metodiki hazırlıq səviyyəsi.

Müsahibədə 3,5 və daha yüksək bal toplamış namizədlər həmin mərhələdən keçmiş hesab edilirlər.

**8. Müsahibə mərhələsində iştirak edəcək namizədlərdən hansı sənədlər tələb olunur?**

- Müsahibəyə çağırılan namizədlər tələb olunan tarixdə şəxsi işlərini (elektron ərizənin surəti, diplom(lar) və ona əlavə(lər), xaricdə təhsil alanlar diplomla yanaşı, təhsil sənədlərinin tanınmasına dair şəhadətnamə, şəxsiyyət vəsiqəsi, sağlamlıq haqqında arayış, əmək kitabçası və elektron ərizəsində göstərilən məlumatları təsdiq edən digər sənədlərin əsli və ya notarial qaydada təsdiq olunmuş surətini) müsahibə komissiyasına təqdim etməlidirlər.